




# 2021 – yeni arzular, ümidlər və möhtəşəm qələbələr ili olacaq!



***Dünya 2021-ci ilə qədəm qoyur. Yeni il təzə arzular, yeni ümidlər deməkdir. Bu, sevgi, şəfqət və mərhəmət bayramıdır. Bu əziz bayram günlərində dostlar, tanışlar bir-birini təbrik edir, ən xoş arzu və diləklərini söyləyirlər. Axı hər bir xoş sözün, ürəkdən deyilmiş kəlmənin ecazkar təsiri olur.***

***2020-ci il xalqımızın taleyində ən uğurlu illərdən biri olub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrikliyi, cəsarəti, yenilməz iradəsi, qətiyyəti, rəşadətli Azərbaycan Ordusunun qeyri-adi şücaətləri sayəsində doğma Qarabağımız yağı düşməndən azad edilib. Azərbaycan torpaqlarımızda tarixi ədalət bərpa olunub.***

Bununla da, xalqımızın 30 illik torpaq həsrətinə son qoyulub. Fikir verin, necə də qürurla səslənir: Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Bu böyük tarixi zəfər Azərbaycanın tarixində qızıl hərflərlə yazılacaq. Bu gün Azərbaycan xalqı tarixinin ən şanlı günlərini yaşayır. Bu halal şan-şöhrət xalqımıza necə də yaraşır. Azərbaycan buna tamamilə layiqdir!

Azərbaycan bayrağı bu gün külli-Qarabağda qürurla dalğalanır! Biz ağır döyüşlərdə şirin canlarından keçmiş şəhidlərimizi heç vaxt unutmayacağıq, onların əziz xatirəsini daim hörmət və ehtiramla anacağıq. Allah onların hər birinə qəni-qəni rəhmət eləsin! Azərbaycan öz qaziləri – mərd, igid, qorxubilməz, qeyrətli oğulları ilə fəxr edir!

Bu il dekabrın 10-da paytaxtın Azadlıq meydanında xalqımız Zəfər paradı keçirdi. Bu möhtəşəm tədbir hər birimizin qəlbini dağa döndərdi, gücümüzü artırdı, gələcəyə olan ümidlərimizə qol-qanad verdi. Zəfər paradı Azərbaycan və Türkiyə xalqlarının sarsılmaz birliyini nümayiş etdirdi. Bu əbədi dostluğu və qardaşlığı heç bir qüvvə sarsıda bilməz!

Xain düşmən torpağımızdan qorxaqcasına qaçarkən oradakı evləri, bağça və məktəbləri dağıtmış, ağacları qırmış, meşələri yandırmışdır. Ermənilərin bu



dəhşətli vandallığı bütün dünyanı şoka salmışdır. Onlar öz layiqli cəzalarını mütləq alacaqlar.

Haqq, ədalət bizim tərəfimizdədir. Azərbaycan xalqı qurub-yaratmağı sevən xalqdır. Zərrə qədər şübhə yoxdur ki, yaxın aylar, illər ərzində işğaldan azad edilmiş bütün ərazilərimizdə həyat yenidən normal məcrasına düşəcək, milli mədəniyyətimizin beşiyi Şuşa, Ağdam, Laçın, Kəlbəcər, digər şəhər, kənd və qəsəbələrimiz gülüstana çevriləcək.

Bəli, bizi qarşıda Qarabağda böyük tikinti-quruculuq, abadlıq layihələri gözləyir. Artıq bu istiqamətdə konkret işlər başlayıb. 2021-ci ildə və sonrakı illərdə quruculuq marafonu daha geniş miqyas və vüsət alacaq.

## Öküz ili nələri vəd edir?

2021-ci il qədim Çin təqviminə əsasən "Öküz ili" hesab olunur. Belə ehtimal olunur ki, "Öküz ili"ndə doğulanlar çalışqan, güclü və qətiyyətli olurlar, onlar fikir və düşüncələrində, davranışlarında dürüst olmağa üstünlük verirlər. Özlərini həyatda təsdiq etməyə, uğur qazanmağa çalışırlar.

"Öküz ili"ndə dünyaya gələn insanlarda adət-ənənələrə sədaqət hissi güclü olur, onlar ailəcanlı və işgüzardırlar. İdeallarına doğru can atırlar, eyni zamanda, imkanlarına uyğun hərəkət edirlər, ətraf mühitin təsirindən asılı deyillər.

Bir şeyə qərar verməzdən əvvəl hər bir addımı təfərrüatı ilə düşünüb-daşınırlar. Qarşılarına qoyduqları məqsədlərinə çatmaq üçün inadla, usanmadan çalışırlar.

Bu bürc altında doğulanlar, adətən, uzunömürlü olurlar. Sağlamlıqlarının qeydinə qalmağı sevirlər. Uzaq yerlərə səfərə çıxmağa can atmırlar. Peşələrinə bağlı olduqları üçün istirahət etməyə meyilli deyillər.

"Öküz ili"ndə doğulanların zəif cəhətləri də var. Başqaları ilə asanlıqla ünsiyyətə girə bilmirlər, hətta tez-tez düşünürlər ki, yaxından tanımadıqları, güvənmədikləri şəxslərlə uzun-uzadı fikir mübadiləsi etməyə dəyməz.

Bir sözlə, 2021-ci il həyatınızı qaydaya salmaq üçün əla fürsətdir. Yeni il uğur qazanmaq istəyənlərə və bunun üçün ciddi səy göstərənlərə gülümsəyəcək. İndi gəlin görək, "Öküz ili" ayrı-ayrı bürclərə nə vəd edir?

**Qoç** (21 mart - 20 aprel) bürcündə doğulanlar üçün 2021-ci il uğurlu olacaq. Belə ki, onlar səbirli olsalar və çılğınlığa yol verməsələr, ilin sonunda deyə biləcəklər: "Bəli, əla bir il oldu!"

**Buğa** (21 aprel - 21 may) bürcündə dünyaya göz açanlar üçün yeni il həm mənəvi, həm də maddi dividendlər gətirəcək. Bundan əlavə, bu il onları maraqlı tanışlıqlar gözləyir, amma bunun üçün daha ünsiyyətcil olmalıdırlar.

**Əkizlər** (22 may - 21 iyun). "Əkizlər" özlərini təvazökar aparsalar, bu, onlara fayda gətirə bilər. Lakin məqsədlərinə çatmaq və yaxşı pul qazanmaq üçün çox çalışmalı olacaqlar. Bir sözlə, hər şey özlərindən asılıdır.

**Xərçəng** (22 iyun - 22 iyul). Bu bürcün nümayəndələri 2021-ci ildə, ilk növbədə, ən vacib olan şeylərə diqqət yetirməli, xırda məsələlərə az əhəmiyyət verməlidirlər. Təəssüf ki, bu bürcün bəzi nümayəndələrini sevgidə xəyal qırıqlığı gözləyir, ancaq ruhdan düşmək lazım deyil, belə ki, sizin üçün ən xeyirlisi nədirsə, o da olacaq.

**Şir** (23 iyul - 23 avqust). "Şirlər" cəsarətli və iddialı olduqları üçün qarşılarındakı bütün maneələr yoxa çıxacaq və hədəflərinə çata biləcəklər. Lakin unutmasınlar ki, həyat əbədi bir tətil deyil, gündəlik əmək və qayğıların təkrarlandığı uzun bir yoldur.

**Qız** (24 avqust - 23 sentyabr). "Qızlar" üçün keçmişi anlamaq, təhlil etmək və yeni biliklər əldə etmək üçün əlverişli il olmalıdır. İl boyu onların çoxlu pul və nüfuz qazanmaq imkanları olacaq. Gənc ailələr daha çox sevinəcək, öz körpələrinə lazımi qayğı göstərə biləcəklər.

**Tərəzi** (24 sentyabr - 23 oktyabr). Öküz ili "tərəzilər" üçün yeni biliklərə yiyələnmək baxımından məhsuldar il olacaq. Qərarlı və iddialı olsalar, daha böyük uğurlara imza ata bilərlər. Ümumilikdə, ulduzlar 2021-ci ildə "tərəzilər"ə bir çox əlamətdar hadisələr vəd edir.

**Əqrəb** (24 oktyabr - 22 noyabr). "Əqrəblər" maddi durumlarını yaxşılaşdıra biləcəklər. "Öküz ili" onlara maraqlı səyahətlər və karyera uğurları vəd edir. Bütün bunlar "əqrəblər"in motivasiyasını yüksəldəcək, ilin sonuna qədər bu ruh yüksəkliyi onları tərk etməyəcək.

**Oxatan** (23 noyabr - 21 dekabr). "Oxatanlar" xoşbəxtliyin təməlinin ailə dəyərlərində olduğunu anlayacaqlar. Onlar lazımsız, səs-küylü proseslərdən nə qədər uzaqlaşsalar, işlər bir o qədər yaxşı gedəcək. Problemlərdən çıxış yollarını öyrənərək həyatlarını yüngülləşdirə biləcəklər.

**Oğlaq** (22 dekabr - 20 yanvar). "Oğlaqlar" 2021-ci ildə səbirli olsalar, ən çətin problemlərin öhdəsindən belə rahat gələ biləcəklər. İlin himayədarı –"Öküz ili" onlardan həyat qaydalarına ciddi şəkildə əməl etməyi tələb edir.

**Dolça** (21 yanvar - 19 fevral). İlin əvvəlində "dolçalar" hər şeyi dəyişdirmək istəyində olacaqlar. Ancaq ulduzlar bu işarənin nümayəndələrinə dəyişiklikləri baharın sonuna qədər təxirə salmağı məsləhət görür. Axı öküz tələsməyi sevmir.

**Balıqlar** (20 fevral - 20 mart). Balıqlar 2020-ci ildə yeni təcrübələr qazanacaqlar. Qeyd etmək lazımdır ki, sakit və səbirli olmağı öyrənsələr, ulduzlardan böyük dəstək alacaqlar. Səfərlər, yeni tanışlıqlar onlara rahatlıq və xoşbəxtlik gətirəcək.

## Yeni il ənənələri

Yeni ili qeyd etmək ənənəsi ilk dəfə harada və nə vaxt meydana gəlib? Gəlin, lap əvvəldən başlayaq. Belə fərziyyələr var ki, Yeni il bayramı ilk dəfə 5 min il bundan əvvəl Mesopotamiyada qeyd edilib. Bu qədim ölkə şumer, babil, assur kimi mədəniyyətlərin mərkəzi kimi məşhurdur. Mesopotamiyada əkin işləri martın sonunda, Dəclə və Fərat çaylarında su artandan sonra başlanırdı. Bu hadisə 12 gün ərzində təntənəli yürüşlərlə, şənliklərlə qeyd edilirdi.

Qədim yəhudilər Yeni ilin bayram edilməsini babillilərdən, yunanlar yəhudilərdən öyrənmiş, Qərbi Avropaya isə bu ənənə yunanlardan keçmişdir. Qədim romalılar hələ bizim eradan əvvəl Yeni il gecələrində səhərə qədər şənlik edir, tanış və dostlarına xoşbəxtlik diləyirdilər. Arxeoloqlar qədim Misir piramidalarında qazıntı işləri zamanı üzərində "Yeni ilin başlanğıcı" sözü yazılmış qab tapmışdılar.

Romalılar imperator Yuli Sezarın yeni təqvimi tətbiq etməsinədək Yeni ili martın əvvəlində bayram edirdilər. Böyük sərkərdə eramızdan əvvəl 45-ci ildə Misirdə olarkən bu ölkədə geniş tətbiq olunan zaman təqvimi ilə tanış olmuşdu. Həmin təqvim 12 aydan və 365 gündən ibarət idi. Salnaməçilər yazırlar ki, Y.Sezar elə Misirdəcə yeni təqvimin hazırlanması barədə əmr vermişdi.

O da bəllidir ki, bəzi xalqlar Yeni il bayramını müxtəlif vaxtlarda qeyd edirdilər. Məsələn, qədim Yunanıstanda bayram ilin ən uzun gününə - 22 iyuna düşürdü. İngiltərədə isə bayram şənliklərinə martın 1-də başlayırdılar. Dünya xalqlarının bir çoxunda, xüsusən də, Afrikada Yeni ilin qarşılanması gecəsi fit və çəpik çalmaq, hay-küy qoparmaq, tullanıb-düşmək, haray-həşir qoparmaq adət-ənənələri vardı. Yəqin ki, bu ənənələr bütpərəstlik zamanından mövcuddur. Qədim insanlar əcinnələri və digər şər qüvvələri qovmaq üçün bu üsullara əl atırdılar.

Hər bir xalqın Yeni ili qarşılama ənənəsi var. Məsələn, italyanlar Yeni ili bayram etməzdən öncə mənzillərindəki bütün köhnə əşyaları pəncərədən küçəyə tullayırlar. Köhnə əşyaların yerini təzə alınmış mebellər tutur.

Yaponlar hesab edirlər ki, Yeni ilin ilk saniyələrindən başlayaraq gülmək adama uğur gətirir. "Gündoğar ölkə"də Yeni il gecəsi 108 dəfə zəng çalmaq adəti mövcuddur. Qədim inanclara görə, vurulan hər bir zəng insan qüsurlarından birini "öldürür". Yaponlar hesab edirlər ki, insanın altı qüsuru olur: simiclik, axmaqlıq, qərəz, yelbeyinlik, qətiyyətsizlik, paxıllıq. Və bu qüsurların hər birinin 18 müxtəlif çaları mövcuddur. Yaponlar Yeni ildə öz yaxınlarına məhz bu qüsurlardan azad olmalarını arzulayırlar. 6-nı 18-ə vuranda 108 alınır. 108 rəqəmi və bu qədər zəng çalmaq ənənəsi də məhz buradan yaranıb.

Yeni il bayramı polyak xalqının da sevimli bayramıdır. Polyaklar Şaxta babanı Silvestr Klaus adlandırırlar. Onların inancına görə, bu, həmin Silvestr adlı məşhur nağıl qəhrəmanıdır ki, Levifian adlı vəhşiyə qələbə çalaraq həmvətənlərini dəhşətli bəlalardan xilas edib.

Avstraliyada da Yeni il şənlikləri kifayət qədər ekzotik keçirilir. Qar, şam ağacı, maral və bayramın digər ənənəvi atributlarının olmaması səbəbindən Şaxta baba Sidney çimərliyində parlaq rəngli üzgüçülük kostyumunda peyda olur. Bununla belə, "Köhnə dünya"nın ənənələrinə uyğun olaraq Şaxta babanın mütləq ağ saqqalı və qırmızı papağı olur. Yeni il axşamı açıq səma altında atəşfəşanlıqların keçirildiyi müxtəlif ictimai məkanlara baş çəkmək ənənəyə çevrilib.

## Bayramın əsas rəmzləri

Yeni ilin ayrılmaz atributu Rusiyada, Şimali Amerikada, ümumiyyətlə, dünya dövlətlərinin çoxunda şüşə və plastik oyuncaqlarla, şamlarla və şirniyyatla bəzədilmiş yolkadır. Yolka bayram dövründə mənzillərdə, yaxud böyük şəhərlərin iri meydanlarında qurulur. Bayram ərəfəsində ağacların bəzədilməsinin başlanğıcı Misir fironlarının dövrünə təsadüf edir.

Bizim eramızda Avropa ölkələrində Milad bayramı münasibətilə küknar ağaclarını alma, qoğal və şamlarla bəzəməyə başlamışdılar. Adamın heç inanmağı gəlmir ki, nə vaxtsa yolkanı başı üstə qururdular. Bayram qurtarandan sonra uşaqlara ağacdakı meyvələri və şirniyyatı yığmağa icazə verirdilər.

Yolka qurmaq ənənəsi Almaniyadakı Reyn çayının sahillərində, Elzas əyalətində qoyulub. XVI əsrdə burada Milad yolkası qurmağa başlamışdılar. Bəzən də Milad ağacını tavandan başı aşağı asırdılar. Almaniyada Milad bayramında uşaqlar üçün mizlərin üstünə hədiyyələr düzürdülər. Bu ölkədə əvvəllər yolkanı yalnız şəhərlərdə qoyurdular, sonralar əyalətlərdə də belə ənənə formalaşmışdı.

1820-ci ildə Praqada, XIX əsrin başlanğıcında isə Skandinaviya ölkələrində şəhər meydanlarında yolkalar qurulmuşdu. Yolka qurmaq adəti cəmiyyətin yüksək



təbəqələrindən gəlirdi. Məsələn, İngiltərədə yolkanı 1760-cı ildə ilk dəfə kral III Georqun arvadı bəzəmişdi, sonralar isə kraliça Viktoriya özünün milliyyətcə alman olan əri Albert ilə Vindzor şəhərində uşaqlar üçün yolka qurmuşdu.

Vyanada Müqəddəs Stefan kilsəsində quraşdırılmış "Sülh Zəngi"nin təntənəli sədalarını dinləmək burada Yeni ilin yazılmamış qanunlarından biri hesab olunur. Dekabrın 31-də Kilsə meydanına minlərlə insan toplaşır. Keçmişdə bu ölkədə Yeni il günü bacatəmizləyənlə qarşılaşmaq, ona toxunmaq və paltarına ləkə salmaq yaxşı əlamət sayılırdı. Hesab olunurdu ki, bu, böyük xoşbəxtlik və uğur gətirir.

Rusiyada da qədimdən bayram yolkası bəzəməyi çox sevirlər. Əvvəllər yolka qurmaq ənənəsi burada da şəhərlərdə yaranmışdı, sonra kəndlərə də sirayət etmişdi. Əvvəl yolkanı kənd məktəblərində qururdular, sonralar isə kəndli evlərində də yolka qurmağa başlamışdılar. XIX əsrdə avropalı mühacirlər yolka bəzəmək ənənəsini Amerikaya da aparıb çıxarmışdılar. Okeanın o tayında ilk dönəmlərdə yolkanı meydanlarda qururdular.

Böyük Britaniya adətlərinə görə, Milad ərəfəsində kişilərin bayram yolkasının ətrafında istənilən qızı öpməyə hüququ çatır. Bu ölkədəki qədim ənənələrdən biri də bayram oduncağıdır. Deyilənlərə görə, bu adəti İngiltərəyə vikinqlər gətirib. Onlar Miladda böyük ağac kəsirlər. O, bütün il boyu qalır və büsbütün quruyur. Yalnız növbəti Miladda onu evə gətirirlər və bu odun uzun müddət yanır.

## Şaxta baba sovqatla gəlir

Bəllidir ki, Yeni il şənlikləri turistləri cəlb etmək üçün yaxşı fürsət hesab olunur. Buna görədir ki, bir çox ölkələr bayramın əsas rəmzlərindən olan Şaxta babaya "sahib çıxmağa" cəhd edirlər. Ən çox da şimal xalqları iddia edirlər ki, ilk Şaxta babalar məhz onların ölkəsində peyda olublar.

Məsələn, finlər bütün dünyaya car çəkirlər ki, Santa Klaus, yəni Şaxta baba onların həmvətənidir. Onların inanclarına görə, Santa Klaus Finlandiyanın qütb dairəsinə yaxın ərazilərdəki hündür küknar ağacları ilə əhatə olunan, bəmbəyaz qardan "ağ libas" geyinmiş Laplandiya adlanan möcüzəli bir yerdə yaşayır.

Finlandiyada Yeni il şənlikləri dekabrın 25-dən, yəni Milad bayramı günündən başlanır. Dekabrın 31-i, Yeni il axşamı isə ölkə paytaxtı Helsinkidə nağıl və əsatir qəhrəmanlarının libaslarını geyinmiş həvəskar aktyorlar teatr məzhəkələri göstərirlər. Həmin gecə hədiyyə dolu xurcunu ilə Santa Klaus şimal maralları qoşulmuş xizəkdə Helsinkinin mərkəzi meydanına təşrif buyurur. Meydanda dərhal alqış səsləri eşidilir, şən mahnı sədaları ətrafa yayılır. Bayram günlərində dünyanın hər yerindən Santa Klausun vətəninə - Finlandiyaya, həqiqətən, çoxlu turist gəlir.

Yeni ili "Laplandiya"da keçirən əcnəbi qonaqlar etiraf edirlər ki, burada bayram etməyin ayrı səfası var! Özünüzü bir anlığa rəngbərəng oyuncaqlar bərq vuran Yeni il yolkasının başına dolanan uşaqların, övladlarına baxıb sevinən gənc ata-anaların və bir-birini sevən gənclərin yanında hiss edin. Göydən isə iri, yumru qar dənələri ələnir. Heç kəs soyuğu, şaxtanı vecinə almır. Hamı gülür, sevinir. Romantik səhnədir, deyilmi?

İrlandiyada Yeni il ərəfəsində axşam evlərin qapılarını taybatay açırlar. Bu vaxt kim istəsə evə girə və bu ailənin hörmətli qonağı ola bilər. Onu yuxarı başda otuzdurur, şəraba qonaq edib deyirlər: "Bu evdə və bütün dünyada sülhün sağlığına!" Saat 12-nin yarısında irlandiyalılar küçələrə axışır, oxuyur, oynayır, şənlənirlər.

Norveçdə uşaqlar hədiyyəni keçidən gözləyirlər. Bu ölkədə keçinin müəyyən üstünlükləri var. İş burasındadır ki, rəvayətə görə, Norveç kralı İkinci Olaf bir dəfə yaralı keçini qayaların üzərindən düşürərək xilas edib. Kral həmin keçini sarayına gətirib onu sağaldaraq gəldiyi yerə qaytarır. Keçi isə minnətdarlıq əlaməti olaraq hər axşam xilaskarına şəfalı otlar gətirirmiş.

Bəli, biz 2021-ci ilin ərəfəsindəyik. Şaxta baba əlində Yeni il sovqatları, yanında da Qar qız hamını, xüsusilə də uşaqları bayramın gəlişi münasibətilə müjdələməyə tələsir. Xoş gəlir, səfa gətirir. Qoy xalqımız üçün 2020-ci il – Zəfər ili kimi, 2021-ci il də düşərli olsun! Belə bir deyim var ki, Yeni ili hansı əhval-ruhiyyədə başlasan, bütün ili həmin ovqatla başa vuracaqsan. Biz də oxucularımıza, bütün xalqımıza bu gözəl bayramı xoş ovqatla başlamağı, bütün arzularının çin olmasını diləyirik. Qoy 2015-ci il hər birinizin həyatında ən uğurlu illərdən biri olsun. Yeni il bayramınız mübarək!

**P.S.** Əziz oxucu, lütfən elə düşünməyin ki, bu yazının müəllifləri bayram şənlikləri barədə danışarkən COVID-19 təhlükəsini tamamilə yaddan çıxarıblar. Əsla, belə deyil. Məlumdur ki, pandemiya ilə bağlı dünyanın bir çox ölkələrində infeksiyanın sürətlə yayılmasının qarşısını almaq məqsədilə kütləvi bayram tədbirləri qadağan edilib. Bununla bərabər, hamı kimi biz də çox ümid edirik ki, növbəti yeni il bayramlarını, əvvəlki illərdə olduğu kimi, yenə də şən və gur şəraitdə keçirmək mümkün olacaq. İnşallah!

***Məsaim ABDULLAYEV,***
***Paşa ƏMİRCANOV,***
***Elçin ABBASOV,***
***"Xalq qəzeti"***